Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Ustad qələmində uşaq dünyası

**Teymur Elçinin 95 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Ustad qələmində uşaq dünyası:** Teymur Elçinin 95 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası ; tərt.ed. A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı : F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2019. - 29 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tərtibçidən

*Yazan çoxdur.*
*Elə yaz ki,*
*Mahnın sözsüz olmasın.*
*Deyən çoxdur.*
*Elə de ki,*
*Sözün duzsuz olmasın.*
*Baxan çoxdur.*
*Elə bax ki,*
*Qəlbin gözsüz olmasın.*
*Yanan çoxdur.*
*Elə yan ki,*
*Külün közsüz olmasın.*
***Teymur Elçin***

Uşaq ədəbiyyatı, onun taleyi həmişə diqqət mərkəzində olmuşdur. Ədəbiyyatımızın tarixinə nəzər salaq. Nizamidən tutmuş Sabirə qədər klassik şairlərimizin demək olar ki, hamısının yaradıcılığında – birində az, birində çox – uşaqların tərbiyəsinə həsr olunmuş poetik parçalara rast gəlirik. Böyük poeziyası ilə mövcud ictimai quruluşu dəyişməyə çağıran Sabir "vaxt tapıb" balaca oxucular üçün "Ağacların bəhsi", "Yalançı çoban", "Uşaq və buz" və s. kimi şeirlərini yazmağı da unutmurdu. Eləcə də Q.Zakir, S.Ə.Şirvani, A.Səhhət. Bu gün uşaq ədəbiyyatının inkişafına xüsusi diqqət yetirilir, qüdrətli sənətkarlardan tutmuş gənc yazıçılara qədər hamı uşaq ədəbiyyatı sahəsində öz qələmini sınayır.

İyirminci yüzilliyin ikinci yarısı Azərbaycan uşaq ədəbiyyatının, xüsusilə poeziyasının ən yaxşı nümunələrindən söhbət gedəndə ilk növbədə Teymur Elçinin yaradıcılığı yada düşür. O, sözə ilahi bir varlıq kimi baxırdı, onu yüksək qiymətləndirirdi, dilin təmizliyi uğrunda yorulmaq bilmədən mübarizə aparırdı. Bir çoxları kimi Teymur Elçin də fikirləşirdi ki, söz allahdan aşağıda, insandan yuxarıdadır. Həm bədii əsərin,

həm də insanın taleyini o həll edir. Şahlar, sultanlar dünyadan köçüb gedir, unudulur, sözə qiymət verənlər, onu uca tutanlar isə əbədiyyətə qovuşur.

Azərbaycan şairi, tərcüməçi, jurnalist Teymur Elçinin bu il 95 illik yubileyi qeyd olunur. Ədibin yubileyi münasibətilə işlədiyimiz bu vəsait iki hissədən ibarətdir. Birinci hissə "Ustad qələmində uşaq dünyası" adlanır. Bu hissədə Teymur Elçinin həyat və yaradıcılığından bəhs edilir. İkinci hissədə isə onun yaradıcılığı ilə bağlı keçirilə biləcək tədbirlərdən söhbət açılır.

## Həyat və yaradıcılığı

Əliyev Teymur Süleyman oğlu 1924-cü il martın 28-də Şuşa şəhərində anadan olmuşdur. 1931-ci ildə ailəliklə Bakıya köçmüşlər. Burada 132 saylı şəhər orta məktəbini bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır (1941-1948).

Eyni zamanda "Gənc işçi" qəzeti redaksiyasında ədəbi işçi (1941), Azərbaycan Radio Komitəsində ictimai-siyasi verilişlər baş redaksiyasında ştatdankənar müxbir (1941-1942), diktor, redaktor, məsul redaktor (1942-1943), İkinci Dünya müharibəsi dövründə Zaqafqaziya cəbhəsində kursant, kiçik komandir, alay komsomol təşkilatçısı, Zaqafqaziya cəbhəsi siyasi heyətinin hazırlıq və yenidən hazırlıq kurslarının müdavimi (1943-1945) olmuşdur. Ordu sıralarından tərxis ediləndən sonra APİ-nin komsomol komitəsinin katibi (1945-1946), Azərbaycan LKGİ Bakı şəhər komitəsinin birinci katibi (VI, 1946 – IV, 1948), Azərbaycan LKGİ MK təbliğat və təşviqat şöbəsi müdirinin müavini (1948-1949), Azərbaycan LKGİ Bakı komitəsinin katibi (U, 1949 – IV, 1950), "Azərnəşr"in siyasi-ictimai ədəbiyyat şöbəsinin müdiri (1950-1952), Azərbaycan Nazirlər Soveti yanında Radio Məlumat Komitəsi sədrinin müavini

(1952-1953), Azərbaycan Nazirlər Soveti nəşriyyat qrupunun rəisi, katibliyin müdiri (1953-1955), Azərbaycan KP MK elm və mədəniyyət şöbəsinin təbliğat və təşviqat şöbəsi müdirinin müavini (1955-1957), Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin (sonra Dövlət komitəsi) sədri (1957-1964), Azərbaycan KP MK təbliğat və təşviqat şöbəsinin müdiri (1964-1975), Azərbaycan mədəniyyət nazirinin müavini (1975-1988) vəzifələrində işləmişdir. Azərbaycan KP MK ümumi şöbəsinin müdiri (1988-1990), Azərbaycan LKGİ MK və Bakı komitəsinin üzvü, Bakı şəhəri rayon partiya komitəsinin büro üzvü seçilmişdir. Azərbaycan KP XXI, XXU qurultaylarında Azərbaycan KP Təftiş Komissiyasının üzvü, Azərbaycan KP MK üzvlüyünə namizəd, XXIV, XXV, XXVI, XXVU, XXVUI qurultaylarında isə Azərbaycan KP MK üzvü, Azərbaycan Ali Sovetinin V, VI, VU, VUI çağırış deputatı seçilmişdir. Sovet İttifaqı rəsmi nümayəndə heyətinin tərkibində Albaniya (1957), Bolqarıstan (1962), Macarıstan (1966), Polşa (1973) ölkələrində olmuşdur. İspaniyada, Avstriyada, Türkiyədə keçirilən Beynəlxalq folklor festivallarında Azərbaycan kollektivlərinə rəhbərlik etmişdir. Ədəbi fəaliyyətə kiçik yaşlarından başlamış, ilk şeirlərini məktəb şənliklərində oxumuşdur. Onun ilk mətbu əsəri Bakı Mərkəzi Pionerlər Evinin 1938-ci ildə nəşr etdiyi "Şeirlər məcmuəsi" ndə dərc olunan "Azərbaycan" şeiridir. Bundan sonra məktəb illərində onun dövri mətbuatda ("Kommunist", "Yeni yol" və "Azərbaycan pioneri" qəzetlərində) dərc edilən yazılan "Teymur Əlizadə" imzası ilə çıxmışdır. Onun bir sıra siyasi, lirik, əmək və uşaq şeirlərinə mahnılar bəstələnmişdir. "Qar qız" mənzum pyesi M.Qorki adına Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmuşdur (1983). Əsərləri keçmiş SSRİ, həmçinin xarici ölkə xalqlarının dillərində çap olunmuşdur. Bədii tərcüməyə də xüsusi diqqət yetirir. Xidmətlərinə görə "Qırmızı Əmək Bayrağı

ordeni" (1971), "Şərəf nişanı" ordeni (1979), yeddi medal və üç dəfə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə, həmçinin ÜİLKGİ MK və Azərbaycan LKGİ MK Fəxri fərmanları ilə təltif edilmişdir. Elçin Əfəndiyevin qayınatası olmuşdur.

## Yubiley tədbirlərinin keçirilməsi

Görkəmli şair Teymur Elçinin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, icmal, oxucularla söhbət, rəsm və şeir müsabiqəsi, dəyirmi masa, səhnəcik, səhərcik, ədəbi-bədii gecə və s. keçirilə bilər. Ədibi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır. Sərgiyə müxtəlif başlıqlarlar verilə bilər: "Xalq hikmətini uşaqlara çatdıran şair", "Sadə, müdrik poeziya sahibi", "Elimizin, dilimizin gur çeşməsi – Teymur Elçin", "Sadə, müdrik poeziya sahibi – Teymur Elçin", "Uşaqlar üçün yazan şair" və s.









## Görkəmli şəxsiyyətlər Teymur Elçin haqqında

Teymur Elçinin həm bədii yaradıcılığı, həm də tərcümə əsərləri onun uzun müddət məşğul olduğu jurnalistik sənətinə xidmət edirdi. Hər şeirində, nəğməsində, tərcümə əsərində xalqımızın ruhu döyünən Teymur Elçin görkəmli bir söz adamı kimi hələ çox nəsillərin yol yoldaşı olacaqdır.

**Zahid Xəlil,**
*filologiya elmləri doktoru*

Teymur Elçin Azərbaycan ədəbiyyatının yaxın dostu idi. Bizim ədəbiyyatımızın qayğısına qalan idi. Teymur ədəbiyyatımızı dərindən bilirdi.

**Hüseyn Abbaszadə,**
*Xalq yazıçısı*

Biz yazıçının əsərlərinin hər birində onun dil şirinliyini, ifadə gözəlliyini, səmimiyyətini görə bilirik.

***Qabil,***
*Xalq yazıçısı*

Ruhumuzu gözəlləşdirən, kiçikdən böyüyə hamının sevimlisinə çevrilmiş istedadlı şair Teymur Elçinin yaradıcılığını oxuculara tanıtmaq, şair qələmini onlara sevdirmək və ən əsası da, bütövlükdə məktəblilərə oxu vərdişi aşılamaq üçün kitabxanalarda görüləcək tədbirlərdən biri də *"Teymur yaradıcılığı oxucu gözü ilə"* adlı ***oxucularla söhbət*** adlanır. Tədbir oxuculara, Teymursevərlərə şairin əsərlərini tanıtmaq məqsədi daşıyır. Kitabxanaya toplaşan oxucular kitabxanaçı tərəfindən qarşılanır. Kitabxanaçı gələn qonaqları salamladıqdan sonra şairin kitablarından ibarət olan sərgi ilə yaxından tanış edir. Eyni zamanda o, Teymur Elçin haqqında məlumat verir.

*Kitabxanaçı:* Teymur Elçinlə bizi neçə illik məsafə ayırsa da, onun yaratdığı şeir və poemalar, nəğmələr, tərcümələr, bu gün də dilimizin və mədəniyyətimizin keşiyində mərdi-mərdanə dayanır.

Teymur Elçin bir söz sərrafı kimi əsərlərində kəlmələri zərgər dəqiqliyi ilə seçirdi. Xalqın dilindən eşitdiyi sözləri ustalıqla oxucusuna öyrədirdi . Məsələn, dilimizdə "qaçaqaç", "uçauç", "köçaköç" kimi sözlər var. Uşağa necə başa salaq ki, "qaçaqaç" sözü bir adamın qaçması deyil, çox adamın eyni və ya müxtəlif tərəflərə tələm-tələsik getməsidir. Teymur Elçin belə sözləri uşağa başa salmaq üçün kiçik sujetlər qurur. Balaca bir epizoddan sonra onun bütün mahiyyəti uşağa aydın olur.

Qonşuluqda təzə bir ev tikdilər
Köhnəsini sökdülər
Köçakök düşdü .
İlxıya canavar gəldi
Atlar hürküşdü.
Qaçaqaç düşdü.

Onun şeirlərində xalq danışıq dilinin şəhdi-şirəsi var.

Teymur Elçin yanıltmaclarını da təkcə tələffüz məxrəcləri yaxın olan səslərin düzümündən yaratmır. Bu yanıltmaclar alliterasiya yaratmaqla da məhdudlaşmır, belə əsərlər də dilimizdə az işlənən sözlər məharətlə qafiyələnir, təzə sözlərin öyrənilməsinə xidmət edir.

İki büküm kükü yedim,
Yedim iki büküm kükü.

Hər uğurlu kitab təzə ocaq yerinə bənzəyir. Onun kəlamları kül altında köz kimidir. Teymur Elçinin yaratdığı uğurlu kitablar çoxdur. Belə kitabların hər bir səhifəsində oxucunu həyacanlandıran təsvir və ifadələrə rast gəlmək mümkündür. O, dünya uşaq ədəbiyyatının ən yaxşı ənənələrini həm öyrənir, həm də müvəffəqiyyətlə inkişaf etdirirdi. Onun nağılları təkcə

uşaqlar üçün olmurdu. Onların hökmən ikinci qatı vardı və həmin o ikinci qat böyükləri belə düşünməyə, əhvalatdan fəlsəfi məna çıxarmağa məcbur edirdi. "Qarğanın məktəbində" nağılını xatırlayaq. Qarğa bütün quşları məktəbinə yığır və onlara qarıldamaq öyrədir. Lakin hər quş öz nəğməsini oxuyur. Sərçə "cik-cik", turac "bipbiht" deyə qışqırır. Qarğanın cəhdləri hədər gedir. Bu əhvalat təkcə uşaqlar üçün deyil, onun alt qatındakı məna tərbiyəçiləri düşündürür. Öz qarıltısını bütün nəğmələrə qarşı qoyan qarğalar həmişə olub.

Son dərəcədə zəngin bir yaradıcılıq yolu keçən şairin tərcümə yaradıcılığı ayrıca bir tədqiqatın mövzusudur. Çünki Teymur Elçin tərcümə etdiyi əsəri dilimizdə yenidən yaradırdı. "Milçək vizilcək" əsərini xatırlayaq:

Milçək, milçək vizilçək
Qarnı qızılı dibçək
Pul tapdı göy çəməndə
Başıaşağı gəzəndə.

Pulu tapandan sonra yükü ağırlaşan milçəyin uçuşunda dəyişiklik olduğu üçün şeirin ritmi də ona uyğunlaşır:

Yolu bazara saldı,
Qızıl samovar aldı.
Gəlin ay tarakanlar,
Qonaq olun çayım var.

Lakin Teymur Elçinin tərcüməçilik istedadı dünya xalqlarının folklorundan nümunələri dilimizə çevirəndə daha uğurlu görünür. O, rus, belarus, latış, moldav, ingilis, çex, fransız, yapon, yunan, Şimali Qafqaz xalqlarının folklor nümunələrinin xeyli hissəsini dilimizə çevirib. Həmin xalqların poeziyasındakı özünəməxsusluğu öyrənən şairin uğur qazanması da bununla bağlıdır:

Keçi, keçi, keçicik,
Ayaqları kiçicik.

*(rus folklorundan)*

Və ya :

Leysan yağışı,
Tök suyu,
Ağarınca bizi yu.
Böyüyüm boy atım tez,
Dananı otarım tez.
*(latış folklorundan)*

Teymur Elçinin fikrincə zəngin yumor mənbəyi olan xalq ədəbiyyatı həm də uşaq şeirinin tükənməz mövzu çeşməsidir.

-Ay Qaranquş,
Mehriban quş
Nə aparırsan?
-Balalara yarma.
-Hanı onlar?
-Ocaqda.
-Ocaq hanı?
-Söndürdü yağış.
-Yağış hanı?
-Öküz içdi.
- Öküz hanı?
-Qurd apardı.
-Bəs qurd hanı?
-Dəyənəklə
-Qovdu Matvey
Bitdi hər şey.

Dövlətimiz hər zaman uşaq ədəbiyyatına xüsusi diqqət və qayğı göstərmişdir. Böyük Vətən müharibəsinin qanlı-qadalı günlərində – 1944-cü ildə böyük şair S.Vurğun "Balalarımız üçün gözəl əsərlər yaradaq" adlı məqalə ilə çıxış etməsi təsadüfi deyildir. S.Vurğun yazırdı: "...biz uşaqla danışdığımız zaman insanla danışdığımızı, uşaq üçün yazdığımız zaman insan üçün yazdığımızı unutmamalıyıq... Uşaq üçün yazılmış hər bir əsərin əsasında məna gözəlliyi yaşamalıdır". Unutmamalıyıq ki, yeni

insan tərbiyəsi, ona ali hisslər aşılanması, onun cəmiyyətimizin sabahı üçün ləyaqətli vətəndaş kimi hazırlanması məsələsi indi də əsasdır, lazımdır. Bu yolda isə bədii ədəbiyyatın müstəsna rolunu qeyd etməmək olmaz. Cəmiyyətdəki antipodlara lap kiçik yaşlarından tərbiyə etmək məsuliyyəti bədii ədəbiyyatın da üzərinə düşür. Uşaq qəlbini və beynini ağ kağıza bənzədirlər. Ora düşən hər "yazı" saflıq, təmizlik, düzlük humanist ideallar, mübarizlik kimi ali hisslərin cövhəri ilə yazılmalıdır. Bədii sözün qüdrəti ilə çəkilən lövhə, göstərilən hadisə, nəqş olunan mənzərə uşaq təxəyyülündə əbədi izlər salır, silinmir. Uşaq ədəbiyyatına diqqəti zəiflətmək olmaz. Görkəmli tacik şairi Mirsəid Mirşəkər demişdir: "Mən yaşlılar üçün zəif yazanları bəlkə də bağışlardım, uşaqlarçün zəif yazanları isə məhkəməyə verərdim. Axı uşaq bizə inanır, onu aldatmaq asandır".

Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi və uşaqların sevimli sənətkarı Teymur Elçin ədəbi fəaliyyətə erkən başlamış və mütəmadi şəkildə məşğul olmuş, balalarımız üçün bir-birindən şirin və maraqlı əsərlər yazıb-yaratmışdır.

"Qar qız", "Bip-bip", "Qulaq asın, danışım", "Qızulduz", "Yaşar və Nur nənə", "Bahar, adlar, uşaqlar", "Şeirlər, nəğmələr, tapmacalar, yanıltmaclar", "Laylalar", "Şəkərim, duzum", "Balaca Aytən" və b. kitablar şairin uşaqlar tərəfindən sevə-sevə oxuduqları əsərlərdir. Bununla yanaşı "Torağayın nəğməsi" və "Toğrul babanın nağılları" kitabları da oxucular tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Şairin tərcümə sahəsində də xidmətləri böyükdür. Y.Raynisin, S.Marşakın, K.Çukoviskinin, A.Bartonun, Q.Quliyevin, N. Zabilanın, P.Voronkonun və başqalarının əsərlərini balaca oxucularımıza çatdırmışdır. Şairin əsərləri də bir çox xalqların dillərinə tərcümə olunmuşdur. Dili dilimizdən, sərhədləri sərhədlərimizdən, adət-ənənələrimizdən çox-çox uzaq olan xalqların poeziyasından edilən tərcümələrin bir neçə

sətrini oxucuların mühakiməsinə veririk. Teymur Elçin eyni zamanda ustad nəğməkar şair kimi tanınmışdır. Şeirlərin dili sadə, qafiyələri musiqili olduğundan sanki bu şeirləri biz tərcümədən oxumuruq.

*Yunan xalq poeziyasından:*

Budur gəldi qaranquş
Dənizlərdən uçan quş,
Özünü tez-tez yetirdi,
Bizə nəğmə gətirdi,
"Əziz mart, salam sənə!
Soyuq fevral keçsənə.
Yağsa da lap qar, yağış
Yaz gəldi, yaza alqış!"

*Yapon xalq poeziyasından:*

Qazlar, köçəri qazlar,
Qazlar, uçarı qazlar,
Düzülün barmaq kimi,
Əyilin qarmaq kimi
Daldakı başda uçsun,
Başdakı dala keçsin
Yelpik kimi açılsın,
Qazlar göyə saçılsın.

Teymur Elçini və onun əsərlərini oxuculara tanıtmaq məqsədilə kitabxanada bir çox tədbirlər də keçirmək olar. Məsələn, bu məqsədlə kitabxanaçı bir neçə məktəblə sıx əməkdaşlıq edir. O, şagirdləri, xüsusən də, yuxarı sinif şagirdlərini kitabxanaya cəlb etməklə şairin əsərləri ilə tanış edir. Kitabxanaya abunə olan şagirdlər Teymur Elçinin əsərlərini oxuyur, onun yaradıcılığı ilə yaxından tanış olurlar. Bu vaxt ərzində kitabxanaçı yuxarı sinif şagirdləri ilə şairin bir sıra hekayələrini səhnələşdirə bilər. Məsələn: şairin sevilən əsərlərindən biri olan "Nar nağılı" əsasında hazırlanmış səhnəciyi sizlərə təqdim edirik.

Öncə səhnədə əsərə uyğun olaraq, dekorasiya hazırlanır. İştirakçılar canlandırdıqları obrazlara uyğun paltarlar geyinirlər. Aparıcı səhnəyə yaxınlaşaraq poemadan bir hissə deməyə başlayır:

*I iştirakçı:* Qədimlərdə
Böyük bir el-oba vardı,
Qaranlıqlar içində o
Yaşayardı.
Oğurlayıb aparmışdı
Qara devlər günəşini,
Söndürmüşdü çox evlərin,
Ocağını, atəşini.
Xəbər tutub,
Yol üstündə
Yığışmışdı qocalar,
-Deyirlər ki, yenə günəş
Gətirməyə gedən var!

*II iştirakçı:* -Kimdir görən?

*III iştirakçı:* -Günər adlı bir uşaq!
-Devlər onu
Sərçə kimi boğacaq!

*II iştirakçı:* Yox, igiddir,
Ümidimiz onadır.
-Günəş onun
əllərində doğacaq!

*I iştirakçı:* Qucaqlayıb nəvəsini
Baba belə deyirdi:

*IV iştirakiçı:* -"Gedər-gəlməzdir"
Bu yol
Qorxaqlardan ötəri.
Qorxma, get ürəkli ol!
Yadda saxla sözümü,
Tilsimləri parçala
Günəşlə qayıt dala!..

Günər səsləndi:
V iştirakiçı: -O-hooy!
Dərələrdən sel kimi,
Təpələrdən yel kimi,
Uçub gəldi Qızılquş.
*I iştirakçı:* Onun adıymış Ohoy.
Quş deyildi elə bil,
Adam tək bilirdi dil.
-Uçaq, uçaq! deyirdi;
İşıqlı gözləriylə
Gördüyünü yeyirdi.
Qılınc bağladı Günər,
Qalxan aldı əlinə.
Göz qırpınca sıçradı
Qızılquşun belinə.
Uca dağlar aşdılar,
Uzun yollar keçdilər.
Yerdə alovlar görüb,
Ağ buluddan düşdülər.
Babasının sözünü
*V iştirakiçı:* Yetirdi Günər bağa:
- Nübar bağ!
Barın çox olsun!
*I iştirakçı:* Söndü tilsim-alovlar,
Açıldı gen darvaza.
Günər girdi içəri,
Az qaldı çaşıb-aza.
Hər yandan çığırdılar:
-Qoyma bağa girən var!
Narımızı dərən var!
Qol-budaqlı nar ağacı
İnildədi:
*VI iştirakçı:* -Sındım, aman!
-Sındım!-dedi,

Kömək elə!
Tir-tir əsdi nar ağacı,
Neçə narı düşdü yerə.
Hərəsindən bir qız çıxdı-
Nar giləsi.
Görünməyib heç beləsi.
Alışırdı nar yanaqlar,
Qızarırdı nar dodaqlar,
Bu balaca gözəl qızlar
Qaçırdılar ora-bura,
Pərvanə tək uçurdular,
Özlərini
Ağaclara vura-vura

*VII iştirakçı:* -Yandım, aman,
Yandım, yandım!-
Deyirdilər.
Nardan çıxan bu qızlara,
"Yandım!"-deyən susuzlara
Ovcunda
Su verdi Günər.
Sükut çökdü
Bir anlığa
Qızlar bağında,-
Susdu gözəllər...
Göy guruldadı,
Şimşək çaxdı birdən
Bilinmədi göydən düşdü,
Dördbuynuz dev,
Qorxusuz dev,

*VIII iştirakçı:* -Adam-badam
İyisi gəlir,
Kimdir girən
Nar bağına?!
Çıxsın, görüm, qabağıma!..

*V iştirakçı:* -Mənəm! Günər!
*I iştirakçı:* Hirsləndi dev:
*VII iştirakçı:* -Bura gələn sağ qayıtmaz,
Külə dönər!
*I iştirakçı:* Qəhqəh çəkib üfürdü dev,
Var gücüylə,
Gözlər çıxdı kəlləsinə.
Tufan qopdu nar bağında,
Alt-üst etdi yeri, göyü,
Günəri çox atıb-tutdu,
Gah qaldırdı, gah oturtdu,
Çox istədi çırpsın yerə.
Günər çəkdi qılncını,
Səpələdi qığılcımı-
Şimşək çaxdı elə bil,
Dev soyudu. Tufan yatdı,
Dördbuynuzun səsi batdı,
Elə bil heç dev deyil.
Dördbuynuz dev bildi nə var,
Gördü nədir Şimşək qılınc
Üstündəki parıltılar.
*V iştirakçı:* -Dev, yaxın gəl,
Qılıncımı göstərim.
Sən baxmasan pis olar!
*VII iştirakçı:* -Yox, yox, oğlan!..
Yaxın gəlmə!..
Sənə heç bir sözüm yox!
-Onun sənə sözü var!
-Yox, yox!
-Yox, yox!
-Deyir öldür dördbuynuzu,
Qalsın dördcə buynuzu.
Öldürmə yox!..
Dördbuynuz dev

Qorxusuz dev
Yalvardı çox:

*VII iştirakçı:* -Götür, sənin olsun bu bağ,
Məni, amma, gəl sağ burax!
Narcanı da,
Mərcanı da götür apar.
Yaxındakı ağacdadır,
Özün qopar!

*I iştirakçı:* Bu vaxt Qızılquş göründü,
Tez şığıdı devin üstə.
Parıldadı Şimşək qılınc
Vurub keçdi ildırım tək.
Yerə düşdü devin başı
Gövdəsindən üzülərək.
Danışırdı bədənsiz baş,
Xırıltıyla, yavaş-yavaş.
Qılıncını qaldıranda
Yenə Günər
Çığırışdı nar qızları-
Nargilələr:

*VIII iştirakçı:* -Dəymə ona! Tilsimlidir!
Kim toxunsa alovlanar,
Külə dönər!
Devin canı qalıb narda
Nar asılıb budaqlardan.
Təkcə Narcan
Tapa bilər.

*I iştirakçı:* Qızlar yenə çığırdılar:
"Narcan! Narcan!"
Ağacların arasından
Bir qız baxdı:
Günəri o lap çaşdırdı,
Gözlərini qamaşdırdı.

*IX iştirakçı:* -Axtardığım günəş budur:

Məni yaxdı.
Elə bil ki, eşitdi qız
Bu sözləri.
Yaxın gəldi əlində nar.
Günəş dağlar dalındadır
Uzaqlarda.
Tələsərsən, əlin yanar.
Dev ölməyib,
Qırılmayıb tilsimləri,
Köməyinə çağırır o
Göyü, yeri.
Bu nardadır onun canı,
Öldürməsən, -
Qara devlər yığışacaq,
Töküləcək
Adamların qanı nahaq.

*I iştirakçı:* Günər narı vurdu yerə,
Parçaladı.
İçindən bir sərçə uçdu,
Qızılquşun
Caynağına gəlib düşdü.
Dördbuynuzun canı sərçə,

*X iştirakçı:* Sağ ol cavan!
Sən oyatdın bu qızları
Devin ölüm yuxusundan.
Məni də sən etdin xilas.
Yaxşılığın yerdə qalmaz.
Arzun nədir, gizlətmə gəl!
Eləyərəm ona əməl.

*VII iştirakçı:* -Mən günəşi axtarıram.
Zülmətdədir elim, obam.
Bacarırsan, kömək elə,
Qayıtmayım yarı yoldan...

*I iştirakçı:* Getdi Narcan,

Balaca bir yaşıl kolun
Yarpaqları arasından
İki iri nar qopartdı,-
Dağ laləsi, qıpqırmızı.
Yaxın gəldi,
Günərə bir nar uzatdı:
*X iştirakçı:* -Götür, bunu, sən yeyərsən.
Güc gələcək qollarına.
Tufanlara, çovğunlara
Düşəcəksən,
Saxtalarda donacaqsan,
Sən günəşi görmək üçün
Alovlarda yanacaqsan.
Amma ölüm
Gəlməyəcək sənə yaxın,
Saxlayacaq səni bu nar.
Götür, apar!
Qabağına qoç gələcək,
Bir cüt, qoşa,
Buynuzlaşa-buynuzlaşa,
Biri ağ qoç-biri qara,
Qara qoçu qoyma yaxın,
Atar səni yarı yoldan
Yenə zülmət dünyasına,
Gecələrin gecəsinə...
Min ağ qoça,
Möhkəm yapış buynuzundan.
Ağ qoç səni gətirəcək
Qaf dağının ətəyinə.
Orda uca çinar bitib,
Dövrəsindən keçən yollar
Çoxdan itib-
Nə gələn var, nə gedən var.
O çinarda yuva qurub

Zümrüd quşu.
Yuvasında-balaları.
Dənələrsən, bax, bu narı.
Bircə-bircə yedirərsən
Balalara
Əgər yolda düşsən dara
Köməyinə gələcəklər.
Mərcan narın yarısını
Saxlayarsan Zümrüd quşa
Qanadına alıb səni
Aparacaq Gündoğuşa.
Qaf dağının zirvəsində
Görüşərsən
Günəşlə sən.
Qayaların arasından
Qulağına səs gələcək;
Get yaxına.
Zəncirlənmiş bir cavanı görəcəksən.
Yaxşı-yaxşı bir bax ona.
Elə bil ki, yuxu görür.
İnildəyir.
Məğrur başı
Sinəsinə hərdən dəyir.
Dövrəsində qıy vuruban
Qoca qartal güdür onu.
Hərdən qonur döşü üstə
Caynağıyla parçalayır,
Ürəyini didir onun.
O zirvəyə çıxsan əgər,
O cavanın zəncirini
Qırıb atsan,
Çatacaqsan istəyinə,
Onda bil ki, sən rahatsan:
Od verəcək günəş sənə.

Yollarıma məşəl edib
O odu sən
Zülmətləri qovacaqsan,
Elə işıq verəcəksən!..
Günər baxdı uzaqlara
Gözlərində gün işığı.
“Gəl!”-deyirdi indi ona
Yerin göylə qarışığı,
Vidalaşdı, Nar bağıyla,
Ağacları, torpağıyla.
Nar-qızlarla sağollaşdı.
Sağ ol, Narcan!
Nurla dolsun
Bağın, baxçan,
Salamat qal!
Sağ get, sağ gəl.
Üzüağ gəl,
Uğur olsun,
İgid oğlan !

*Tədbir iştirakçılar tərəfindən rəğbətlə qarşılanır.*

Şairin onlarca şeirinə musiqi bəstələnmiş, nəğməyə dönmüş şeirlər bağça uşaqlarının, məktəblilərinin dilinin əzbəri olmuşdur. Kitabxanaçı Teymur Elçini və əsərlərini oxuculara tanıtmaq məqsədilə kitabxananın “Nağıl otağı” nda onun *“Yaşar sənət seçir”* adlı kitabını azyaşlı uşaqlara təqdim edir, eləcə də şair haqqında dəyərli məlumat verir. Azyaşlı uşaqlar kitabxanaçı tərəfindən oxunan eyniadlı əsəri dinləyirlər.

Kiçik Yaşar
Hər gün tezdən oyanır.
Sərhəd qurur,
Keşiyində dayanır.
Gah atılır
Əlindəki avtomat,
Gah kişnəyir

Altındakı köhlən at.
Sərhədçidir,
Yaşıl papaq başında,
Sərhədçidir,
Yaşar düz beş yaşında.
Neçə gündür
Maşın sürür: du-du-du.
Yəqin ki, bu,
Təzəcə bir arzudu.
Maşında
Keçir uzaq yolları,
Qovur qaçan
Ağacları, kolları.
Bu sürücü
Yaxşı sürür maşını.
Bitirməyib
Hələ altı yaşını.
Yenə nədir
Səs-küy qopub həyətdə?
Elə bil ki,
Arılardı pətəkdə:
-Qapıya vur!..
-Vurmadın bu topu da!..
-Necə vurum,
Yaşar durub qapıda?!
Qapıçının
Cəmi yeddi yaşı var.
Bu gün onun
Həyətdə çox işi var.
-Bəs o nədir,
Çarpayıdan asdığı?
-Yumruqlayır
Səhər-axşam yastığı.
Neçə gündür

Boksa salıb meylini,
Əlcəklərdən çıxarmır heç əlini.
-Ata, ata!
Yaşar söküb saatı...
Görəsən bu xarratı?!
Sənət seçir,
Kömək edir Yaşara.
Bir iş tapsın,
Yoxsa qaqlsın avara.

*Tədbir 3-7 yaşlı uşaqlar üçün nəzərdə tutulur.*

Kitabxanada keçiriləcək tədbirlərdən ən möhtəşəmi ədəbi-bədii gecədir. Teymur Elçinin xatirəsinə həsr olunmuş "Uşaq dünyasını işıqlandıran şair" adlı ədəbi-bədii gecəyə Azərbaycanın görkəmli ədiblərini, sənət-söz adamlarını dəvət etmək olar. Tədbir iştirakçıları kitab sərgisi ilə tanış olduqdan sonra zalda əyləşirlər. Şairin sözlərinə bəstələnmiş mahnılar səslənir və tədbiri açıq elan etmək üçün aparıcılar səhnəyə daxil olurlar.

*I aparıcı:* Ədəbiyyatımızda Teymur Elçin adında bir imza var... Teymur Elçin çox işıqlı bir insan idi, ziyalı bir insan idi və hamımızın-bütün oxucuların yaddaşında da o cür ziyalı kimi, xalqına bağlı olan, onun mədəniyyətini, onun ədəbiyyatını, onun dilini yaşatmaq istəyən, onların qayğısına qalan bir insan kimi yadda qalıb. Teymur Elçin sözə zərgər kimi yanaşırdı. Məhz buna görə də onun şeirləri uşaqlar tərəfindən çox sevilib, asan əzbərlənirdi. O, eyni zamanda yaxşı mahnıların da müəllifi idi. Teymur Elçin bizim aramızdan tez getdi. İndi bir təsəllimiz var ki, onun qoyub getdiyi əsərlər, bu gün də Azərbaycan ədəbiyyatının, Azərbaycan poeziyasının gözəl nümunələri kimi yaşayır və yaşayacaqdır, bundan sonra da dərsliklərə düşəcəkdir.

*II aparıcı:* Vaxtilə A.P.Çexov yazırdı ki, Allaha inanmaq çətin deyildir; əsl hünər insana inanmaqdır...

İnsana, insanlığa inam, sonsuz hörmət və məhəbbət ədəbiyyatımızın əsasına qoyulmuş sarsılmaz bir ideyadır. Bu

ideyanı uşaq mövzusunda yazılmış əsərdə canlı lövhələr, boyalar, surətlər, sözlər vasitəsilə əks etdirmək xüsusi istedad və bacarıq tələb edir. Uşaq qəlbini, uşaq dünyasını nəcib duyğularla, musiqi və şeiriyyətlə, xəyal və gözəlliklə doldurmaq, çırpındırmaq, həm də onları həqiqəti dərk etmək vasitəsinə çevirmək çətin olduğu qədər də şərəflidir. Bütün bunlar belə bir mülahizəyə haqq verir ki, böyüklər üçün yazmaq bir istedad tələb edirsə, uşaqlar üçün yazmaq iki istedad tələb edir.

*I aparıcı:* Sevimli şair Teymur Elçinin kifayət qədər yaradıcılıq təcrübəsi, sevimli mövzuları, surətləri, qəhrəmanları vardır. Onun əsərlərini nəzərdən keçirəndə belə qənaətə gəlirsən ki, T. Elçin bütün varlığı ilə, bütün istedadı ilə uşaq ədəbiyyatına bağlı şairdir. Sadəlik, yığcamlıq, musiqilik, adi həqiqətləri uşaqlara sevdirə biləcək şeiriyyətlə tərənnüm-təsvir onun poeziyasının başlıca məziyyətlərindəndir. Şair balaca dostları ilə açıq, ciddi, səmimi danışır; mehriban, eyni zamanda tələbkar valideyn kimi danışır; onların kinsiz, küdurətsiz körpə qəlblərini ehtizaza gətirir. Sözlərin müxtəlif məna çalarlarını, xalq dilinin zəngliyini, əlvanlığını, poetikliyini uşaqlara çatdırmaq baxımından bu şeirlər müstəsna əhəmiyyətə malikdir.

*II aparıcı:* Şair Teymur Elçin uşaq ədəbiyyatımızın tanınmış nümayəndələrindəndir. Uşaq dünyasının qayğıları bütövlükdə böyüklərin, ümumiyyətlə, cəmiyyətimizin problemləri deyilmi? Hətta dünyanın ən vacib problemi-Sülh, dinc yanaşı yaşamaq, əmin-amanlıq məsələlərindən danışanda belə ilk növbədə gözümüzün qabağına uşaqlar gəlir. "Uşaqlar sabahımızdır" deyən böyüklər onların həm də bizim bu günümüz olduğunu yaxşı bilirlər.

*I aparıcı:* Qara ölüm ürəkdən sevdiyimiz bir insanı, Azərbaycan xalqının namuslu, qeyrətli oğlunu, istedadlı şair, tərcüməçi, ictimai xadim Teymur Elçini aramızdan apardı. O, bahar

fəslində dünyaya gəlmişdi. “Abi-həyatı  nərmi-nazik bayatı” olan Qarabağın musiqi dünyası hopmuşdu. Bu, onu bütün yaradıcılığı boyu müşayiət etdi. Onun təkrarsız yaradıcılığı Azərbaycan övladlarının kiçik qəlbini daim fəth edən böyük sevgiyə çevriləcək. Nə vaxta qədər ki, dünyada uşaqlar var, Teymur Elçin şeirləri yaşayacaq.

*II aparıcı:* Qitələr qulaq assın
Ürəyimin səsinə:
-Müqəddəstək and içək
Bir körpə nəfəsinə .

Bu nəfəsdə nərgizin,
Qızılgülün ətri var.
Bir körpə nəfəsində
Neçə bulaq çağlayar.

Qışın şaxtalarında
Qəlbimizi isidir.
Bəs bu hərarət nədir?
-Bir körpə nəfəsidir.

Neyləyər var-dövləti,
Bircə layla bəsidir.
Bir laylanı oxudan
Bir körpə  nəfəsidir.

Ağ gün azadlıqdır,
Qara gün qəfəsidir.
Ərzi sülhə səsləyən
Bir körpə  nəfəsidir.

Körpə nəfəsləriylə
Ətirlənsin yer üzü,
Qoruyaq körpələri-
Gələcək ömrümüzü...

# Ədəbiyyat siyahısı


**Əsərləri**

Balaca Aytən : Kiçik yaşlı uşaqlar üçün. - Bakı : Renessans-A, 2017. - 12 s.

Hər şey! Hər şey!. - Bakı : "Təhsil" , 2017. - 112 s.

Nar nağılı : Şeir. - Bakı : Beşik, 2009. - 51 s. : rəngli il. - (Mən və mənim dünyam).

Tuk-tuk, tak- tak - Bakı : Beşik, 2009. - 30 s. : rəngli şək. - (Mən və mənim dünyam).

Yaşar sənət seçir. - Bakı : Altun Kitab, 2013. - 12 s. : rəngli şək. - (Mənim ilk kitabım : 5-6 yaş).

***Əsərləri***

***Kitablarda***

Saç-saçaq ; Keçim ; Qaçaqaç və s. : şeirlər // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə. - Bakı : Öndər, 2004. – C. 2. - S. 166-173.

Keçim ; Qaçaqaç ; Saç-saçaq // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 2 cilddə. - Bakı : Renessans, 2016. – C. 2 : Klassik və müasir uşaq poeziyası – S. 162-176.

Keçim ; Mən də, mən də ; Analar və laylalar və b. şeirlər // Məmmədova Ş. Azərbaycan uşaq ədəbiyyatı antologiyası : 3 cilddə. - Bakı : [s. n.], 2018. – C.2 : Müasir uşaq poeziyası. – S. 124-138. - (Uşaq ədəbiyyatı).

***Haqqında***

***Kitablar***

**Teymur Elçin** : Biblioqrafiya. - Bakı : M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2014. - 248 s. - (Azərbaycanın görkəmli şəxsiyyətləri).

***Kitablarda***

**Hacızadə N.** Nurlu ömür : şair Teymur Elçin haqqında // Yada düşdü. – Bakı : Aspoliqraf, 2008. - S. 312-327.

**Sadıq F.** Torağay nəğməsi : Teymur Elçin // Taleyin acığına. - Bakı : Çinar-Çap, 2003. - S. 265-266.

**Şükürova E. (Fuad).** Uşaqlar üçün yazmaq hünərdir, məharətdir, qeyrətdir // sözə sevdalılar. – Bakı : Nərgiz, 2011. – S. 75-83.

**Məmmədova Ş.** Teymur Elçin (1924-1992) // Azərbaycan uşaq ədəbiyyatı antologiyası : 3 cilddə. - Bakı : [s. n.], 2018. – C. 2 : Müasir uşaq poeziyası. – S. 122-124. - (Uşaq ədəbiyyatı).

**Namazov Q.** Teymur Elçin (1924-1992) // Azərbaycan uşaq ədəbiyyatı. – Bakı : Bakı Universiteti nəşriyyatı, - 2007. – S.337-340.

Teymur Elçin (1924-1992) // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə. - Bakı : Öndər, 2004. – C. 2. - S. 166-173.

***Dövri mətbuatda***

**Azəri L.** Xalq hikmətini uşaqlara çatdıran şair : Teymur Elçin - 90 // Mədəniyyət. - 2014. - 28 mart. - № 22/23. - S. 11.

**Hacızadə N.** Nurlu ömür : (Şair Teymur Elçinin 90 illiyinə) // Yada düşdü. - 2014. - № Mart/Aprel. - S. 47-53.

**Hüseynov F.** Əsrlərdə və nəsillərdə yaşayan ədib : Milli Kitabxanada görkəmli şair və tərcüməçi Teymur Elçinin 90 illik yubileyinə həsr olunmuş tədbir // Mədəniyyət. - 2014. - 25 aprel. - № 31. - S. 3.

**Xəlil Z.** Unudulmaz Teymur Elçin : Teymur Elçin-90 // Kaspi. - 2014. - 5 aprel. - № 56. - S. 19.

**Kazımov A.** Unudulmaz şəxsiyyət : Teymur Elçin - 90 // Xalq qəzeti. - 2014. - 28 mart. - № 60. - S. 6.

**Məcidova N.** Ustad qələmində uşaq dünyası : Teymur Elçin - 90 : ssenari // Mədəni Həyat . - 2014. - № 5. - S. 83-87.

**Yusifoğlu R.** Teymur Elçinin nağıl dünyası : Teymur Elçin - 90 // Ədəbiyyat qəzeti. - 2014. - 4 aprel. - № 12. - S. 5.

# Ustad qələmində uşaq dünyası

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 12
Çapa imzalanmışdır: 18.02.2019
Tirajı:100
Pulsuz